azərkosmos
fərdi mükəmməlik

# “CanSat Azerbaijan 2018”

# MÜSABİQƏYƏ ÜMUMİ BAXIŞ

## 1. Müsabiqənin mərhələləri

"CanSat Azərbaycan 2018" tələbə model peyk müsabiqəsi **7 mərhələdən** ibarətdir. Mərhələlərin aşağıda göstərilən vaxt aralığında keçirilməsi planlaşdırılır:

| № | Mərhələ | Tarix* |
|---|---|---|
| 1 | **Müraciət və qeydiyyat** | 5 Yanvar - 23 Yanvar |
| 2 | **Müzakirələr və təlimlər** | 1 Fevral - 28 Fevral |
| 3 | **İHS (PDR)** - Modelin ilkin hesabat sənədinin hazırlanması və təqdim edilməsi | 1 Mart – 31 Aprel |
| | **İHS (PDR)** - Modelin ilkin hesabat sənədinin yoxlanılması, təqdimatlar və qiymətləndirilmə | 1 May - 20 May |
| 4 | **YHS (CDR)** - Modelin yekun hesabat sənədinin hazırlanması və təqdim edilməsi | 20 May - 31 İyul |
| | **YHS (CDR)** - Modelin yekun hesabat sənədinin yoxlanılması, təqdimatlar və qiymətləndirilmə | 1 Avqust - 15 Avqust |
| 5 | **Hazırlanan peyk modellərinin sınaqları və buraxılışı** | 1 Sentyabr - 15 Sentyabr |
| 6 | **USH (PFR)** - Uçuş sonrası hesabat sənədinin təqdim edilməsi | |
| 7 | **Yekun qiymətləndirmə və təltifetmə** | |

* Sənəddə qeyd edilmiş tarixlər müsabiqənin təşkilatçılar tərəfindən dəyişdirilə bilər.

### 1.1. Müraciət və qeydiyyat

Müsabiqədə iştirak etmək istəyən komandalar "Müraciət forması"-nı doldurub qeydiyyat müddəti ərzində Təşkilatçılara imzalanmış formada poçt vasitəsi ilə təqdim etməlidirlər.

**Qeyd:** "Müraciət forması"-nı göndərməklə komandalar "Müsabiqənin texniki şərtləri"-ni oxuduqlarını və onlarla razılaşdıqlarını təsdiq edirlər. Bu sənəddə zərurət yaranarsa, Təşkilatçılar tərəfindən dəyişiliklər edilə bilər. Bu halda komandalar əvvəldən xəbərdar ediləcək.

Həmçinin, komandalar "cansat.az" veb səhifəsindən də qeydiyyatdan keçməlidirlər.

Komanda **1 tələbənin** komanda kapiatnı seçilməsi şərti ilə **minimum 3**, maksimum isə:

- yalnız bakalavr pilləsində oxuyan tələbələrdən ibarət komanda üçün – 8;
- yalnız magistr pilləsində oxuyan tələbələrdən ibarət komanda üçün – 4;

- bakalavr və magistr pilləsində oxuyan tələbələrdən ibarət komandalar üçün – 4 bakalavr və 2 magistr olmaqla cəmi 6;

tələbədən ibarət ola bilər. Bütün komanda üzvləri eyni ali təhsil müəssisəsində təhsil almalıdır. Təşkilatı işlərin koordinasiyası üçün komandaya ali təhsil müəssisəsi tərəfindən **Nümayəndə** təyin olunmalıdır.

**Qeyd:** Nümayəndə müsabiqə zamanı texniki tapşırıqlarla bağlı komandaya heç bir köməklik göstərməməlidir.

Təşkilatçılar tərəfindən qeydiyyat ilə bağlı məlumatlar birbaşa komandaların elektron poçt ünvanına yönləndiriləcək.

**Qeyd:** Təşkilatçılar tərəfindən hər hansısa komanda "Müsabiqədən kənarlaşdırma meyarları" bölməsində göstərilən səbəblərə əsasən müsabiqədən kənarlaşdırıla bilər.

### 1.2. Müzakirələr və təlimlər

Təşkilatçılar tərəfindən qeydiyyatdan keçən komandalara mentor təyin olunacaq. Mentorlar tərəfindən iştirakçılara müsabiqədə qoyulan tapşırıq ilə bağlı müzakirələr aparılacaq, ümumi təlimatlar veriləcək və ortaya çıxan suallar cavablandırılacaq. Əsas biliklərinin formalaşdırılması üçün Təşkilatçılar tərəfindən komandalara xüsusi təlimlər təşkil ediləcək.

### 1.3. İlkin hesabat sənədi (İHS)

Modelin ilkin hesabat sənədində komanda qoyulmuş tapşırığın həll yolları, modelin eskiz layihəsi, seçilməsi planlaşdırılan sensor və digər hissələri barədə hesabat təqdim etməlidir.

Hesabat sənədi Təşkilatçılar tərəfindən verilmiş şablon nümunədə hazırlanmalı və .pdf formatında elan olunan tarixdən gec olmayaraq "cansat.az" saytına yüklənməlidir. Komanda üzvləri hazırladıqları sənədin təqdimatını münsiflər heyətinə 30 dəqiqə vaxt ərzində etməlidirlər.

Modelin ilkin hesabat sənədləri qiymətləndirmə meyarları əsasında münsiflər heyəti tərəfindən qiymətləndirilir və bu qiymətlər komandanın ümumi nəticəsinin **20%- ni** təşkil edir.

Bu hissəni uğurla başa vuran ilk **20 komanda müsabiqənin** növbəti mərhələsində iştirak etmək hüququnu qazanacaq.

### 1.4. Yekun hesabat sənədi (YHS)

Modelin yekun hesabat sənədləri ilkin hesabat sənədləri əsasında tərtib olunur. Burada modelin hazırlanmasından əvvəl, son layihələndirmə işləri və istifadə olunacaq komponentlər barədə detallı məlumat göstərilir, həll yolları əsaslandırılır.

Hesabat sənədi Təşkilatçılar tərəfindən verilmiş şablon nümunədə komanda tərəfindən hazırlanmalı və "KomandaİD_YHS_2018" adlandırılması ilə .pdf formatında elan olunan tarixdən gec olmayaraq "cansat.az" saytına yüklənməlidir. Komanda üzvləri hazırladıqları sənədin təqdimatını münsiflər heyətinə öncədən təyin olunacaq vaxtda 30 dəqiqə ərzində etməlidirlər.

Modelin yekun hesabat sənədləri qiymətləndirmə meyarları əsasında münsiflər heyəti tərəfindən qiymətləndirilir və bu qiymətlər komandanın ümumi nəticəsinin **20%-ni** təşkil edir.

Bu hissəni uğurla başa vuran komandalar müsabiqənin növbəti mərhələsində iştirak etmək hüququ qazanacaq.

### 1.5. Hazırlanan peyk modellərinin sınaqları və buraxılışı

Finala vəsiqə qazanan komandalar hazırladıqları modellərin Təşkilatçılar tərəfindən təmin olunacaq daşıyıcı vasitə ilə havaya buraxılması imkanını qazanacaq. Uçuşdan əvvəl komandalardan hazırlanmış model üçün aşağıdakı uyğunluq testləri tələb ediləcək:

- Ağırlıq və həcm standardlarına uyğunluğun yoxlanılması
- 1.5 metr yüksəklikdən sınaq buraxılışı və düşmə testi

**Qeyd:** Zərurət yaranarsa, Təşkilatçılar tərəfindən əlavə testlər və sənədlər tələb edilə bilər.

Keçirilən sınaqlar öncədən komanda tərəfindən video yazı ilə sənədləşdirilməlidir. Testlər uçuşdan əvvəl münsiflər heyətinin iştirakı ilə yenidən keçiriləcəkdir.

Uçuş başa çatdıqdan dərhal sonra komanda toplanan telemetriyaları və tapşırıq çərçivəsində çəkilmiş şəkilləri yaddaş kartına köçürüb münsiflər heyətinə təqdim etməlidir.

Modellərin buraxılışı və missiyanın yerinə yetirilməsi münsiflər heyəti tərəfindən qiymətləndirilir və bu komandanın ümumi nəticəsinin **50%-ni** təşkil edir.

### 1.6. Uçuş sonrası hesabat (USH)

Uçuş sonrası hesabat sənədləri modelin uçuş nəticələrini və uçuş müddətində yaranan problemləri özündə əks etdirməlidir. Bu sənəd uçuş başa çatdıqdan sonra 24 saat ərzində Təşkilatçılar tərəfindən verilmiş şablon nümunədə komanda tərəfindən hazırlanmalı və "KomandaİD_USH_2018" başlığı ilə .pdf formatında "cansat.az" saytına yüklənməlidir. Komanda üzvləri hazırladıqları sənədin təqdimatını münsiflər heyətinə 15 dəqiqə vaxt ərzində etməlidirlər.

Uçuş sonrası hesabat sənədləri qiymətləndirmə meyarları əsasında münsiflər heyəti tərəfindən qiymətləndirilir və bu qiymətlər komandanın ümumi nəticəsinin **10%-ni** təşkil edir.

### 1.7. Yekun qiymətləndirmə və təltifetmə

Aşağıdakı mərhələlər ayrılıqda qiymətləndirilərək ümumi qiyməti formalaşdırır:

- İlkin hesabat sənədi – **20%**
- Yekun hesabat sənədi – **20%**
- Hazırlanan peyk modelinin buraxılması – **50 %**
- Uçuş sonrası hesabat sənədi – **10%**

Əlavə tapşırıqların qiymətləndirilməsi hər mərhələ üzrə ümumi qiymətin **10%-ni** təşkil edəcək. Komanda hər hansı bir mərhələdə əlavə tapşırıq göstərmiş, lakin yarışın növbəti mərhələsində əlavə tapşırığı icra etməmiş və ya ləğv etmişsə, əlavə tapşırığa görə əvvəlki mərhələdə toplanılmış qiymətlər Təşkilatçılar tərəfindən **ləğv edilə bilər**.

Hər mərhələ üçün komanda ən azı iki münsif heyəti tərəfindən qiymətləndirilir. Qiymətlər 'excel' faylı formatında mərhələnin nəticəsi kimi komandanın elektron poçt ünvanına göndəriləcək.

Komanda kapitanı mərhələ üzrə komandanın hər hansı bir meyarı üçün təyin edilmiş qiymətdən narazıdırsa, rəsmi qiymətlər açıqlandıqdan sonra **3 gündən gec olmayaraq Təşkilatçıların elektron poçt ünvanına** məlumat göndərə bilər. Təşkilatçılar sənədin yalnız müvafiq hissəsinin və ya bütöv sənədin yenidən yoxlanılmasına qərar verərək yeni münsif(lər) təyin edəcək. Təşkilatçılar yeni qiymətləndirmənin nəticəsini nəzərə alaraq komandanın həmin mərhələ üzrə öncədən topladığı nəticəni dəyişə bilər.

İştirakçılar aşağıdakı kimi təltif ediləcək və mükafatlandırılacaq:

- Modelin ilkin və yekun hesabatını təqdim edən və Uçuş mərhələsinə keçməyən komandalar iştirakçı sertifikatları ilə təltif olunacaqlar;
- Uçuş mərhələsində uğur qazanmış komandalara xüsusi sertifikatlar təqdim olunacaq;
- Uğurla çıxış edən iştirakçılara Azərkosmosda təcrübə əldə etmə imkanları yaradılacaq;
- Qaliblərə beynəlxalq "CanSat" müsabiqəsində iştirak zamanı texniki dəstək göstəriləcək;
- İştirakçılara və qaliblərə həvəsləndirici mükafatlar təqdim ediləcək.

## 2. Müsabiqədən kənarlaşdırma meyarları

Komandaların yarışmada iştirakı aşağıda göstərilən meyarlar əsasında Təşkilatçılar tərəfindən dayandırıla bilər:

- Digər komandaların sənədlərindən məlumatı özünə köçürmək;
- Layihənin şərtlərinə riayət etməmək;
- Mərhələlər üzrə tələb edilən hesabat sənədlərini vaxtında və müvafiq formada təqdim etməmək;
- Sənədlərin təqdimatı üçün təyin olunmuş məkana təyin olunmuş vaxtdan 15 dəqiqədən çox gecikmək;
- Təşkılatçılar, münsiflər və ya mentorlar ilə kəskin mübahisə aparmaq;
- Spirtli içki və ya digər sərxoşedici vasitələrin təsiri altında təqdimatlara və ya uçuşa qatılmaq.